**Azərbaycan Respublikası Vergilər Nazirliyi**
**Beynəlxalq Münasibətlər İdarəsi**
**Beynəlxalq Təcrübələr və İnnovasiyalar Şöbəsi**

# Özünə Xidmət Vergi Terminalı

Vergi ödəyicilərinin vaxtına qənaət və səmərəliliyin artırılması məqsədi ilə, bir sıra qabaqcıl vergi administrasiyalarında özünə xidmət vergi terminalları tətbiq olunmaqdadır. Həmin terminalları bəzən "vergi bankomatları" da adlandırırlar. Əsasən vergi orqanlarının xidmət mərkəzlərində, ticarət və biznes mərkəzlərində o cümlədən insanların sıx olduğu yerlərdə yerləşdirilir və demək olar ki, xidmət mərkəzlərinin təklif etdiyi bütün xidmətləri təqdim edir. Şəkildə göstərilən terminal Çin Xalq Respublikasında istehsal olunmuş və bəzi vergi orqanlarında geniş istifadə olunmaqdadır. Yoxlanılan səmərəlilik nəticəsində həmin terminallar beynəlxalq bazarlarda da təmsil olunmağa başlanmışdır. Bu gün **İnspur** markalı terminallar Rumıniya, Macarıstan, Səudi Ərəbistan və.s kimi ölkələrin vergi orqanlarında uğurla istifadə olunmaqdadır.



şəkil 1. Özünə xidmət vergi terminalı

Vergi ödəyiciləri vergi bankomatları vasitəsilə müstəqil şəkildə aşağıdakı əməliyyatları həyata keçirə bilirlər:

1.Vergi bəyannamələrinin təqdim olunması
2.Vergi hesabatlarının təqdim olunması
3.Vergi bəyannamələrinə düzəlişlərin edilməsi
4.Vergilərin, sanksiyaların nağd pulla ödənməsi
5.Vergilərin, sanksiyaların plastik kartlarla (VISA, MASTER CARDS, MAESTRO) ödənməsi
6.Vergi qanunvericiliyi və digər məlumatların əldə olunması



şəkil 2. Hərəkətli küçədə



şəkil 3. Ticarət mərkəzi



şəkil 4. Biznes mərkəzi







şəkil 5. Market

Terminallar xidmət mərkəzlərində iş yükünü azaltmaqla yanaşı, qeyri-iş saatlarında da vergi ödəyicilərinə xidmət göstərir. Tətbiq olunan ölkə təcrübələrinə əsasən terminallar istifadəçilərin məmnunluq səviyyəsinin artmasına və könüllü əməletmə səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Vergilərin ödənişi plastik kartlarla yanaşı, nağd şəkildə də həyata keçirilə bilir. Ödəniş qəbzlə yanaşı mobil telefona daxil olan qısa mesajla da təsdiq olunur.

## İstifadə qaydaları (əgər xüsusi kartdan istifadə olunursa)

Özünə xidmət terminalları xüsusi vergi xidmət kartları ilə və ya kartsız istifadə olunur. Əgər kartla istifadəsinə qərar verilirsə həmin kart vergi orqanında qeydiyyatdan keçərək ödəyicilərə verilir. Həmin kartları vergi orqanları tərəfindən pulsuz verilir. Kartlar elektron və ya xidmət mərkəzlərində sifariş oluna bilər.

Əməliyyat bitdikdən sonra vergi ödəyicisi əməliyyatın uğurla başa çatması haqqında SMS bildiriş alır.






Terminallar vasitəsilə məlumat toplusunu göndərmək üçün USB məlumat daşıyıcılarından istifadə tələb olunduqda USB məlumat daşıyıcılarından terminala virus ötürmə riski qarşılanıb.




Özünə xidmət vergi terminalı vasitəsilə məlumatların Avtomatlaşmış Vergi İnformasiya Sistemi (AVİS) ilə inteqrasiya aşağıdakı arxitektura ilə həyata keçirilə bilər.




## "**İnspur**" terminalının funksiyaları




**1 ədəd özünəxidmət vergi terminalının qiyməti 35000 ABŞ Dollarıdır.**